Səh. 2 Troya eşşəyi – Azər Musaoğlu

Səh. 3 Səmimiyyətdən doğan sözlər – Hacı Bakiroğlu

Səh. 5 Azdırılmış itimizin dönüşü – Afiq Muxtaroğlu

Səh. 6 İki gündə adam kimi adam olduq – Esmira Ələkbərli

Səh. 2 Sovetpərəst nə bilir Avropa nədir – Çiyalə Osmanova

Səh. 4 “MƏKTƏBDƏ UŞAQ HÜQUQLARI” NƏŞR OLUNUB

Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MAY
2024-CÜ İL
№ 10 (205)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## GÜRCÜSTAN PARLAMENTİ PREZİDENTİN “XARİCİ TƏSİRİN ŞƏFFAFLIĞI HAQQINDA" VƏ "OFŞOR" QANUNUNA TƏTBİQ ETDİYİ VETONU LƏĞV EDİB



Mayın 28-də Gürcüstan Parlamenti Prezident Salome Zurabişvilinin “Xarici təsirin şəffaflığı haqqında” qanuna tətbiq etdiyi vetonu ləğv edib.

Müzakirələrdən sonra vetonun ləğvi ilə bağlı səsvermə keçirilib.

İclasda iştirak edən deputatlardan 84 nəfəri vetonun ləğvinə, 4 nəfəri isə əleyhinə səs verib.

Qeyd edək ki, mayın 18-də Gürcüstan Prezidenti Salome Zurabişvili hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyasının təqdim etdiyi “Xarici təsirin şəffaflığı haqqında” qanuna veto qoymuşdu.

Parlament həmçinin mayın 29-da Prezidentin Vergi Məcəlləsinə dəyişikliyə qoyduğu vetosunu da ləğv edib. Parlament Prezidentin təklif etdiyi qanun layihəsini 1 lehinə, 64 əleyhinə olmaqla rədd edib. Qanunun ilkin versiyası 83 lehinə, 1 əleyhinə olmaqla qəbul edilib.

Prezident Salome Zurabişvili qanun layihəsi ilə ölkənin Vergi Məcəlləsinə düzəlişləri “qəbuledilməz” adlandırıb. O, qanun layihəsinin yerli və xarici investorların sərmayələrinə münasibətdə qeyri-bərabər və ayrı-seçkilik yaratdığını, Gürcüstanın beynəlxalq investisiya məkanında reputasiyasını zədələyəcəyini və çirkli pulların yuyulması ilə bağlı qanunlardan yayınmaq riski yaradacağını bildirib.

Qeyd edək ki, qanun layihəsi ofşor şirkətlərdən Gürcüstana pul köçürmələrinin vergidən azad edilməsini nəzərdə tutur. Həmin əməliyyatlar gəlir, mənfəət və əmlak vergilərindən azad olunacaqlar. Həmçinin aviasiya vasitələri, avtomobillər, maşınlar idxal rüsumlarından azad ediləcək və 2030-cu ilədək əmlak vergisi ödəməyəcəklər.

## GÜRCÜSTAN PARLAMENTİ Aİ-NİN TÖVSİYƏLƏRİ ÇƏRÇİVƏSİNDƏ ÜÇ QANUNVERİCİLİK PAKETİ QƏBUL EDİB



Gürcüstan parlamenti üçüncü oxunuşda Avropa İttifaqının (Aİ) tövsiyələri əsasında üç qanunvericilik paketini nəzərdən keçirib və dəstəkləyib.

Parlament “Xüsusi İstintaq Xidməti haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında” qanunlara dəyişikliklər və “Ümumi məhkəmələr haqqında” üzvi qanunlara əlavələr edilməsi barədə qanun layihələrini qəbul edib.

Səsvermədən sonra parlamentin sədri Şalva Papuaşvili bildirib ki, parlament Aİ-nin tövsiyələrinin doqquz bəndi əsasında üç mühüm qanunvericilik paketi qəbul edib.

“Biz məhkəmələr, antikorrupsiya bürosu, xüsusi istintaq xidməti və fərdi məlumatların mühafizəsi xidməti ilə bağlı üç qanunvericilik paketi aldıq və bu dəfə parlament çoxluğu Avropaya inteqrasiya və doqquz bəndin həyata keçirilməsi üçün vacib olan dəyişiklikləri qəbul etdi, radikal müxalifət olmadan. Beləliklə, müxalifət bu Avropaya inteqrasiya prosesində iştirak etmədi”, – parlament sədri deyib.

## GÜRCÜSTANIN SEÇKİ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİK EDİLİB




Gürcüstanın hakim “Gürcü arzusu” partiyası seçkilərə 5 ay qalmış Seçki Məcəlləsinə dəyişikliklər edib.

Məcəlləyə təklif olunan dəyişiklik layihəsində iki məsələ öz əksini tapacaq.

İlk növbədə, Mərkəzi Seçki Komissiyası sadə səs çoxluğu ilə qərar qəbul edə biləcək.

İkinci təklifə əsasən, MSK-nın 2/3-nin dəstəyini tələb edən qərar qəbul edilməzsə, o, dərhal yeni səsverməyə çıxarılır və bu dəfə sadə səs çoxluğu ilə qəbul edilə bilər.

Məqsəd isə komissiyanın işində blokadaya qarşı mexanizm yaratmaqdır.

Qeyd edək ki, dəyişiklikdə beynəlxalq və yerli ekspertlərdən, monitorinq təşkilatlarından ibarət “MSK-nın məsləhət qrupu”nun da ləğvi nəzərdə tutulur.



# TROYA EŞŞƏYİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Vaxt var idi at ələ düşərdi, meydan ələ düşməzdi. İndi meydan ələ düşsə də, at ələ düşməz. At ölər – meydan qalar. Meydanı boş görüb, bu meydan, bu şeytan deyib, yağışdan sonra çürüntülər üzərində bitən kobələk misalı təkcə öz alçaq gövdəsini, kökünü qoruyan çətirlər görsənməyə başlayar. At meydanında eşşəyin anqırmamasını bilsək də, görmədik. At meydanında eşşək də anqırdı, qoduq da oynadı. Qoduq demiş, burada el arasında yayılmış bir rəvayətlə haşiyə çıxım:

Deməli, bir kənddə Məhəmməd adlı kişi yaşayırmış. Bu Məhəmməd çox kobud və qanmaz adam olduğundan kəndin camaatı onu "Eşşək Məhəmməd" deyə çağırarmış. Bu, Məhəmmədin arvadına çox pis təsir edərmiş. Məhəmmədin qohum-əqrəbası camaata nə qədər yalvar-yaxar edib bu biabırçı ləqəbi onun üstündən götürmələrini xahiş etsələr də, bir nəticə vermir. Axırda kənd cavanlarından bir neçə nəfər toplaşıb Məhəmmədin yanına gəlir və şərt qoyur ki, bir yaxşı qonaqlıq versə bu adı onun üstündən götürüb başqa ad qoyacaqlar. Məhəmməd sevinir, təmtəraqlı qonaqlıq təşkil edib kənd cavanlarını və ağsaqqallarını çağırır. Yeyib-içib şadlıq edirlər, nəhayət, söhbət Məhəmmədin ləqəbindən düşəndə ağsaqqallardan biri deyir:

– Qardaşlar, Məhəmmədin üstündən "eşşək" ləqəbini götürək deyə bu qədər xərc çəkib qonaqlıq verib. Mən onun üzərindən bu ləqəbin götürülməsini və onun əvəzində ona "qoduq" ləqəbi verilməsini təklif edirəm!

Hamı bu fikirlə razılaşır. Qonaqlar dağıldıqdan sonra Məhəmməd sevinərək arvadının yanına gəlib əhvalatı ona danışır. Arvadı Məhəmmədə qulaq asdıqdan sonra deyir:

– Başına kül olmasın, ay kişi, daha nəyə sevinirsən, qoduq da axırda böyüyüb eşşək olacaq da.

İndi meydan şeytana meydanın düz ortasındaca papış tikənlərindir. İndi at izini it izinə qarışdıraraq gözlərə kül üfürürlər. Axı at ölüb, itlərin bayramıdır. Meydan iki eşşəyin arpasını bölə bilməyənlərə, atın qabağına ət, itin qabağına ot qoyanlara tapşırılıb. Məhəmmədhəsən əminin eşşəyinin qisasını Xudayar bəydən ala bilməyən amorf kütləni zaman Xudayar bəylərin yerinə eşşəkləri gətirməklə cəzalandırır elə bil. Hara gedirsən qarşına bir eşşək çıxır. Bilmirsən Xudayar bəyə söyəsən, ya eşşəyi kötəkləyəsən. Bir yandan Xudayar bəyin uzunluğu naçalnikə qədər gedib çatan şallağı, bir yandan da beynəlxalq heyvan hüquqları gəlib durur gözlərinin qabağında. "Qoy, Xudayar bəy anqırsın tayını tapsın" deyərək Xudayar bəyin eşşək cinsindən olduğunu qorxmadan-çəkinmədən bəyan edən Zeynəbin də aqibətini hələ unutmamışıq. Eşşəkdən şikayət yazmağın onsuz da mənası yoxdur, bir də görəcəksən ki, hansısa kəndxuda bu eşşəyin yiyəsi çıxdı və ya eşşəyin yiyəsinin kirvəsi hansısa nazirdir və sair. Daha ərizələri də Mirzə Səfərlər yazmırlar, odey, gir dəftərxanalara, ədliyyə evlərinə, şikayət yazanların (oxu: adını yaza bilməyənlərin), qol çəkənlərin, möhür basanların hamısı Həsən ağaların qohumlarıdır.

Bizim bu "tərəqqimizin" adı da elə atı eşşəyə dəyişməkdir, atdan düşüb eşşəyə minməkdir. Eşşəyə minmək bir ayıb, eşşəkdən düşmək isə iki ayıbdır. Bunun cəmiyyəti süquta uğradan, məhvə sürükləyən, hakimiyyəti əldə saxlamaq, idarə etmək üçün vasitə olduğunu tarix yaxşı xatırlayır. Tarix onu da yaddaşında saxlayır ki, süvarilərin çoxluğu ilə döyüşü qazanmaq şansının olduğu kimi, bir atla alınmaz şəhəri süquta yetirmək də olar – Troya atı kimi.

Bizim bu eşşəklərin arpa yediyi, atların samana həsrət qaldığı dövrümüzdə aparılan eşşəkləşdirmə siyasəti, bəd niyyəti, hiyləsi isə Troya eşşəyinə bənzəyir. Bir səhər latergiya yuxusundan ayılıb görəcəyik ki, bu nəhəng taxta eşşəyin içindən çıxanlar meydanları tam tutublar. Onda eşşəkdən danışmağın özü də tarixin qovluğunda tozlanacaq.

# SOVETPƏRƏST NƏ BİLİR AVROPA NƏDİR



Artıq müəyyən zamandır Tbilisidə baş verən hadisələrdən demək olar ki, hamı xəbərdardır. Son bir neçə həftədir ki, rus qanununun əleyhdarları hər gün Tbilisinin küçələrinə axışaraq etiraz aksiyaları keçirirlər. Gürcüstanın sakit və inkişaf etmiş gələcəyini Avropada görən hər bir vətəndaş öz arzu və istəyi ilə bu aksiyalara qoşulur. Əslində onları dindirəndə ki, Avropa, yoxsa Rusiya tərəfdarısınız, onlar sülh və müstəqillik istədiklərini deyirlər. 70 il rus hakimiyyəti altında qaldıqlarını, bunun onlara azadlıq vermədiyini və xoşbəxt gələcəyin Avropa olduğunu söyləyirlər.

Bu sözləri öz millətimizdən eşitmək çətin, hətta qeyri-mümkündür deyə bilərik. Çünki bizimkilər sovetpərəstdirlər. Gürcülərlə eyni dövrdə, eyni ölkədə Sovet İttifaqının hakimiyyəti altında yaşadıqlarına baxmayaraq bizimkilər Rusiyaya, Sovet İttifaqına daha çox can atıblar və həmişə onun tərəfdarı olublar və bu gün də eyni qaydada davam edirlər. "Heyif deyildi Sovetin dövrünə; Sovetin vaxtında beləmi idi?; İş obyektləri elə, ticarət belə" sözləri bu sovetpərəstlərin dilində şüara çevrilib. Mən hələ indiyə kimi bir nəfər gürcüdən bu və bu kimi sözləri eşitməmişəm. Sanki Sovetin vaxtında biz azərbaycanlılarla gürcülər üçün ayrı-ayrı düşərgələr yaradılıbmış və sanki bizim daha çox üstünlüyümüz varıymış kimi bir ab-hava yaradırlar. Eyni dövrdə eyni dövlətin ərazisində yaşayan, bərabər hüquqlara sahib olan, yaşam standartları eyni olan, sosial həyatda eyni öhdəliklərə malik olan bu iki millətin hansı səbəblərə görə fərqli düşüncəyə, fərqli hakimiyyətə can atdıqlarını aydınlaşdırmaq mənim üçün həqiqətən çətindir.

Bir tərəf 45-46 il əvvəl Konstitusiyada gürcü dili qarşısında "dövlət dili" və "ana dili" sözləri olmadığı üçün etiraz aksiyası edib, digəri üçün isə bu adi hal olub. Biri müstəqillik gününü böyük təmtəraqla qeyd edərkən, digəri Sovetin dağıldığına heyifsilənir. Biri bu gün Avropaya can atır, digəri üçün Avropa da, Asiya da, Amerika da Rusiya deməkdir. Biri sosial və ekonomik cəhətdən inkişaf etmiş gələcək üçün mitinqlər keçirir, digəri maraq üçün mitinqdə iştirak edib sabahısı günü qınaq dolu sözlərlə gürcüləri lağa qoyub, yağlı-buğlu sözlərlə rus qanununu tərifləyir, özü ilə eyni düşüncəyə sahib gənclər yetişdirir. Bax, bu da sizə əməli ilə fikri bir-birinə əks olan insan silueti.

O qədər sovetpərəstdirlər ki, müharibəni belə gözə alıblar. Adım kimi əminəm ki, "bir də baxdın rus Ukraynanın gününə saldı gürcüləri; 1-2 yeri bombalasa bəs edər; havada bir neçə hərbi təyyarə uçuşları təşkil etsə bəs edər; gürcünün nəyi var, bir ovuc torpaqdır, bir də gördün rus qatıb öz ərazisinə" sözləri heç kimə yad olmaz. Bunu deyənlər daha düşünmürlər ki, biz də bu ölkənin bir vətəndaşıyıq. Allah uzaq eləsin, bu cür bir fəlakət baş versə biz də zərər çəkəcəyik. Bu nəyin ayrı-seçkiliyidir, anlamıram. Elə bizim inteqrasiya ola bilməməyimizin ən böyük səbəbi də budur – fərqli dünya görüşü, fərqli hakimiyyət tərəfdarı olmaq, yenidən çox köhnə idarəetmə sisteminə üstünlük vermək.

Demirəm Sovet tamamilə yetərsiz bir ittifaq idi. Amma o qədər ideal deyildi. Çünki əgər belə olsaydı yəqin bu gün də mövcud olardı. Əgər bu gün başqa standart yaşam tərzinə, idarə formasına keçmək lazımdırsa Avropaya üstünlük vermək lazımdır. Amma bu ixtiyarı sovetpərəstlərə deyil, Avropa standartlarına cavab verən cəmiyyətə vermək lazım. Çünki onlar sintez olmağı və tolerantlığın hökm sürdüyü mühiti yaratmağı yaxşı bacarırlar.

Sovetpərəst nə bilir Avropa nədir. Onlar üçün Avropa və "Yevropa" fərqli anlayışlardır. Düşüncəsi kif iyi verən bir qrup şəxsdən nə müasirlik, nə inkişaf gözləmək olar?

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# PALÇIQDAN TOPLANAN ÇÖRƏK PULU



Dünyada elə bir cəmiyyət yoxdur ki, orada hamı varlı olsun. Sadəcə işləmək, çalışmaq lazımdır.

Ümumiyyətlə, ağlaşma quran, hər şeydən şikayət edən adamlardan heç vaxt xoşum gəlməyib. Əlbəttə, adam evsizlikdən, mənzil şəraitinin çətinliyindən əziyyət çəkə bilər, öhdəsində böyük ailə ola bilər. Bu cür adamların çətinliyi dilə gətirməyini anlayışla qarşılamaq lazımdır. Bir də bir cibi və boğazı olan adamlar var, onlar şikayətçi olanda adamın əli-ayağı hər yerdən üzülür. Sizə deyim, az maaşla elə qürurlu və gözütox yaşayanlara rast gəlirəm, adam onların daxilən böyüklüyünə qibtə edir.

İşsizlik bəşəri problemdir. Dünyanın hər yerində, həmişə olub və olacaq da. Gürcüstanda iş tapmaq samanlıqda iynə axtarmağa bənzəyir. Amma tam əminliklə deyirəm ki, bizdə işsizlikdən daha çox tənbəllik problemi də mövcuddur. O insanın ki azacıq da olsa istedadı, qabiliyyəti var, mütləq bir dolanışıq vasitəsi tapır. Yetər ki, bir qədər zəhmətə qatılsın, dolanmağa bir qapı tapır, ən azı fəhləlik edir.

Mətbuat və televiziyanı hamımız izləyirik. Hər gün qətl də olur, intihar da, müxtəlif qəzalar da, təbii fəlakətlər də. Son günlər ölkə ərazisində hava şəraiti mövsümə uyğun olmayaraq əsasən yağıntılı keçdi. May ayı özünü lap mart kimi apardı. Bir canımızı isitdi, bir qanımızı dondurdu. Görünür, təbiətin ürəyi doludu, nəsə edəcəkdi...

Bu il bölgəmizə yaz əvvəlki illərə nisbətən daha tez gəldi. Haradasa, iyirmi gün, bir ay erkən düşən istilər ağacların tez oyanması və çiçək açmasına səbəb oldu. Bu da təsərrüfat sahiblərinin, eləcə də kəndlilərin narahatçılığına səbəb oldu. Yağan yağışlar da bu narahatçılığın əbəs olmadığını göstərdi. Nə ağaclarda düz-əməlli meyvə var, nə də ki, torpaqda məhsul. Olan da ya caddır, ya yaralı...

Ötən günlərdə Marneuli və Bolnisi kəndlərinə sel gəldi. Axşam saatlarında başlayan şiddətli yağış nəticəsində Algeti çayı daşdı, Marneuli bazarını su basdı. Dolanmasını o bazarda alıb yığdığı mala bağlayan caamat palçıq və suyun içindən zəhmətini toplamağa çalışırdı. Məhsullar yararsız vəziyyətə düşdü. Zərər ən azı 3 milyon larini təşkil edir.

Marneuli bələdiyyəsi ərazisində sel nəticəsində vətəndaşlara dəyən zərərin müəyyən edilməsi ilə bağlı komissiya yaradılıb. Deyilənə görə, komissiya təbii fəlakət nəticəsində dəymiş zərəri öyrənib bir qərar verəcək. Aidiyyatı qurumlardan hələ ki xəbər yoxdu, ölmə, eşşəyim, ölmə, yaz gələr, yonca bitər. Hələ meriyanın zərərdi, seldi – vaxtı yoxdur baxmağa, konsert keçirirlər. Dövlətə milyonlarla vergi ödəyən bazar işçiləri hələ də yardım gözləyirlər. Təzminat ödənəcək, ödənməyəcək, hələ o da müəmmadır.

Yazıq kəndliyə ay da qaradır, gün də. Kredit götürüb əkib-becərir, alın təri tökür və bir gündə hamısı məhv olur. Əllərində olanı da məcbur nəyə gəldi satacaqlar, təki çörək pulu olsun. Oliqarx adamların xüsusi parniklərində yetişdirilən məhsul kəndlinin məhsulundan üç qat artıq satılır. Niyə, hansı səbəbdən? – Evində oturub robotlara, insan sağlamlığına zərər verən dərmanlara pul verdiyinə görəmi?..

Bazar qorunmur. Biz yalnız qiymət baha olduğunda narazılığımızı bildiririk, amma bunun səbəblərini araşdırıb gün üzünə çıxaran yoxdur. Bazar qorunmalıdır. Kənd təsərrüfatı məhsullarının ucuz satışı üçün yarmarkalar təşkil olunur. Bir nəfər çıxıb deməlidir ki, sən kimsən ki, kəndlinin məhsulunu ucuz satırsan? Sən hesablayıbsan ki, həmin məhsulun maya dəyəri nə qədərdir? Niyə hər zaman fermer əzilməlidir? Bu gün kənd təsərrüfatı məhsullarının əksəriyyəti maya dəyərindən aşağı satılır. Kəndli əkdiyindən pul qazanmalıdır, hədəf o deyil ki, şəhərdə yaşayanlar fermerin məhsulunu ucuz alsın.

Səlahiyyətli qurumlar fermerin problemini həll etməlidir, bu problemlərlə maraqlanmalıdır. Çayların suyu hara axır – araşdırılmalıdır. Arxlar, su kanalları düzəldilməlidir. Kreslo sahibi oturmamalıdır, xalq üçün bu işlərə nəzarət etməlidir. Sahədən xəbəri olan problemləri çözə biləcək adamlar məsələ ilə maraqlanmalıdır və s.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# SƏMİMİYYƏTDƏN DOĞAN SÖZLƏR



**Hacı Bəkiroğlu**
hacihaciyev@hotmail.com

İnsan bu dünyada yaşadığı müddətdə üç mərhələdən keçir. Təbii ki, söhbət yaşlanaraq ömür sürən insanlardan gedir. Bu üç mərhələ uşaqlıq, gənclik və yaşlılıq dövrləridir. Uşaqlıq dövrü insanın hələ həyatı qavramadığı, olub bitənləri anlamadığı, yemək-içməklə, oyuncaqlarıyla, ata-ana nəvazişiylə ömrünün xoşbəxt anlarını yaşadığı dövrdür. Gənclik dövrü isə, bəlkə də mən yanılıram, artıq sərbəst həyata addımladığı, üzərinə bir sıra məsuliyyətləri aldığı, qanın coşduğu, arzuların yüksəklərə qalxdığı və buna bənzər bir çox hadisələrin cərəyan etdiyi dövrdür. Yaşlılıq isə artıq gənclikdə etdikləri yaxşı işlərlə qürurlanmaq, səhvlərinə və edə bilmədiklərinə peşmanlıq duymaq dövrüdür; hətta bəzi insanların geri – uşaqlıq çağlarına döndükləri günlərdir. Təbii ki, bu dövrlər haqqında dediklərimdə mənimlə həmfikir olmaya bilərsiniz, çünki hər kəsin sərbəst düşüncəsi var və mən də hər bir fikrə və düşüncəyə sayqı duyuram. Nə isə, söhbəti çox uzatmaq istəmirəm. Mən bu yazımda son zamanlarda gördüyüm, şahidi olduğum bəzi hadisələrdən söhbət açmaq istəyirəm.

Bu gün elə bir zamanda yaşayırıq ki, gənclər də çaş-baş qalıblar, nə edəcəklərini onlar da bilmirlər. Onlara düzgün istiqamət vermələri üçün bu gün valideynlərə də böyük məsuliyyət düşür. Bəli, valideyn məsləhətinə qulaq asaraq yön alan gənclərimiz az deyil. Şərt o deyil ki, bütün gənclər mütləq universitet oxumalıdırlar. Allah hər kəsi bir qabiliyyətdə yaradıb, kimisi zehinlidir, qavrama qabiliyyəti güclüdür, kimisi də başqa sahələrdə qabiliyyət sahibidir. Ancaq bu gənclərimiz istər təhsil sahəsində olsun, istərsə də peşə sahəsində olsun, çalışaraq, əzm göstərərək özlərini yetişdirməli, daha da yüksək nailiyyətlər və ya peşəkarlıq əldə etməlidirlər. Gənclərimizin bu istedadlarını, qabiliyyətlərini görən, hiss edən valideynlər onları öz bacarıqları yönündə yönləndirirlər və o gənclər də bu sahələrdə müvəffəq olurlar. Di gəl ki, övladının gələcəyi ilə zərrə qədər də olsun maraqlanmayan, onların hara getdiklərindən, nə iş gördüklərindən bixəbər olan valideynlər də var. Belə valideynlər yuxarıda da vurğuladığımız kimi yaşlılıq dövründə peşmanlıq duyanlar cərgəsində olanlardır. Bu valideynlərin məsuliyyətsizliyi üzündən gənclər küçədə ya siqaret dilənir, ya künclərə girib nəşə, narkotik maddə qəbul edir, ya da özünü kriminal aləmin bacarıqlı bir mənsubu sayaraq başqalarının həyatını heç edirlər. Bu söhbət sadəcə oğlan uşaqlarına və ya oğlan atalarına deyil, həmçinin qız atalarına da şamil edilməlidir. Çünki bu gün bəzi valideynlər qızlarına da çox sərbəstlik verirlər. Bu da qız övladının sabah quracağı ailədə böyük problemlərə yol açacaq. Bu problemləri yaşayan ailələr də az deyil. Bu gün şahidi olduğumuz bir çox hadisələr var bu yöndə. Ər sözü götürməyən, qayınana-qayınata danlağı qəbul etməyən və buna bənzər bir çox cüzi səbəblərə görə yeni evlənmiş qızlar ata evinin yolunu tutublar. Bunun da qaynağı valideynlərin övladlarını ailə dəyərləri və evlilik haqqında məlumatsız buraxmalarıdır.

Odur ki, əziz valideynlər, övladlarınızla daha yaxından maraqlanın, çörəkpulu dalınca qaçmaqla valideynlik bitmir, məsuliyyətiniz son tapmır. Düzdür, halal qazanc əldə etmək, ailənin ehtiyaclarını təmin etmək lazımdır. Ancaq ailəni bir yerdə tutmaq üçün, ailədə xoşbəxtliyi təmin etmək üçün və övladlarınızın sağlam gələcəyi üçün təlim və tərbiyə ilk sırada yer almaqdadır.

Yaşlandığınızda peşman olmamaq üçün indidən övladlarınızın qayğısına qalın. Onların qayğısına qalın ki, yaşlandığınızda onlar da sizə qayğı göstərsinlər.

Bu yazdıqlarım mənim düşüncələrimdir. Əlbəttə, məni qınayan valideynlərlə birlikdə haqq verən valideynlər də olacaqdır. Bu yazını yazarkən özümü valideynlərlə söhbət halında hiss etdim və səmimiyyətdən doğan sözlərimi yazıya həkk etdim. Çünki bizim ən böyük arzumuz gələcəyimizi parlaq, istedadlı, bacarıqlı və əxlaqlı gənclərə buraxa bilməkdir.

# "MƏKTƏBDƏ UŞAQ HÜQUQLARI" NƏŞR OLUNUB




"Məktəbdə uşaq hüquqları" – Gürcüstan Xalq Müdafiəçisinin BMT-nin Uşaq Fondu ilə əməkdaşlığı və Avropa İttifaqının maliyyə dəstəyi ilə yaradılan, şagird və uşaqlar üçün məktəb həyatında mühüm məlumatı əhatə edən nəşri belə adlanır.

Nəşri olduğu kimi sizə təqdim edirik:

**Məktəbdə öz hüquqlarımı necə qoruyum?**

Məktəb uşaqların çox vaxt keçirdiyi bir məkandır. Ona görə məktəbdə hər bir uşaq üçün təhlükəsiz və xoş mühit olması mühümdür. Unutma ki, hər yerdə olduğu kimi, məktəbdə də sənin hüquqların var.

Ola bilsin, məktəbdə həmyaşıdlarının, yuxarı sinif şagirdlərinin, müəllimlərin və ya başqa adamların sənin hüquqlarını tapdalamaq istədiyini hiss edəsən. Əgər hesab edirsənsə ki, məktəbdə sənin hüquqların pozulub, məsələn:

- Böyüklər sənin istəyini, fikrini nəzərə almadan sənin haqqında qərar qəbul ediblər;
- Alçaldılma, bullinq qurbanı olubsan;
- Yaşadığın yerə, dilinə, dininə, hansısa fikrinə və ya başqa səbəbə görə sənə fərqli davranırlar.

Belə hallarda fənn müəlliminə, sinif rəhbərinə, mandatura, məktəb direktoruna müraciət edə, öz narahatlığını bildirə, hüquqlarının qorunmasını tələb edə bilərsən.

Həmçinin əgər məktəbdə sənin hüquqlarının pozulduğunu düşünürsənsə, məktəbin İntizam Komitəsinə müraciət edə bilərsən.

"Disiplin" sözü öz mənbəyini latın dilindən götürür və məsləhət vermək, yetişdirmək deməkdir.

Məktəbdə müəllimlərdən, valideyn və şagirdlərdən ibarət qrup var. Bu qrup İntizam Komitəsi adlanır. Komitə şagirdlərin, müəllim və ya məktəbdə işləyən digər şəxslərin məktəb qaydalarına əməl edib-etməməsinə nəzarət edir.

Uşaqlar əksər hallarda komitəni kiçik məhkəmə da adlandırırlar. İntizam Komitəsinin necə işlədiyini bilmək istəyirsinizsə məktəbinizin nizamnaməsi ilə tanış ola bilərsiniz. Nizamnamədə şagirdlərin, müəllimlərin, direktorun hüquq və vəzifələri yazılıb. Nizamnamə məktəbdə hamıya əlçatan yerdə asılmalıdır ki, hamı onunla asanlıqla tanış ola bilsin. Həmçinin məktəbdən nizamnamələrin sizə verilməsini xahiş edə bilərsiniz və məktəb onları sizə təhvil verməyə borcludur.

**Məktəbin İntizam Komitəsinə necə müraciət edəcəyinizlə maraqlanırsınız?**

Adınızı və soyadınızı qeyd etməklə məktəbin İntizam Komitəsinə ərizə yazın. Başınıza gələn əhvalatı, hüquqlarınızın pozulub-pozulmamasını, narahatlığınızı, şikayətinizi və bu kimi zəruri hesab etdiyiniz digər məlumatları ərizədə qeyd edin.

**Ərizəni kimə verməlisiniz?**

Ərizəni məktəb rəhbərliyinə aparmalı və İntizam Komitəsinə müraciət etdiyinizi bildirməlisiniz. Administratordan ərizənizin nömrəsini soruşun və bu nömrəni yadda saxlayın!

**Bundan sonra nə baş verir?**

Bundan sonra İntizam Komitəsi müraciətinizi oxuyacaq. İntizam Komitəsinin üzvləri də sizinlə danışacaq. Bu zaman ərizənizdə yazılan əhvalatı daha ətraflı danışa biləcəksiniz. Komitə üzvləri ilə söhbət zamanı valideyn, vəkil, psixoloq, sosial işçi yanınızda ola bilər.

*Öz əhvalatınızı etibar və sizə kömək edəcəyinə ümid etdiyiniz yaşlı bir insana da danışa bilərsiniz və ondan məktəbə gedərək İntizam Komitəsində sizin probleminizi müzakirə etməyə köməklik göstərməsini xahiş edə bilərsiniz.*

**İntizam Komitəsi nə edəcək?**

İntizam Komitəsi sizi dinlədikdən sonra qərar qəbul edəcək. Komitə bu qərarı yazmalı və sizə verməlidir.

**İntizam Komitəsi hansı qərarı qəbul edə bilər?**

İntizam Komitəsi sizin fikirlərinizə uyğun və ya əksinə, razılşamayacağın qərar qəbul edə bilər.

**Qərar qəbul edən zaman Komitə bu qaydaları nəzərə almalıdır:**

- Məktəbdə hamının hüquqları bərabər qorunmalıdır. Məktəb qaydalarına hamı riayət etməlidir, şagird və müəllimin azadlığına, ləyaqətinə hörmət etməlidir;
- İntizam Komitəsi məktəbin daxili qaydalarına uyğun hərəkət etməlidir və ədalətli olmalıdır;
- Komitə baş vermiş hadisəni və ərizəçinin fikirlərini ətraflı öyrənməlidir. Komitənin qərarı niyə qəbul etdiyi aydın şəkildə yazılmalıdır.

*İntizam Komitəsi şagirdə, müəllimə və ya məktəbdə işləyən digər şəxsə qarşı töhmət, şiddətli töhmət, xəbərdarlıq və ya sərt xəbərdarlıq kimi qərar qəbul edə bilər.*

*Həmçinin Komitə şagirdə məktəbə faydalı iş görməyi və s. tapşıra bilər.*

*Məktəb öz qərarı barədə uşağın valideyninə təcili surətdə məlumat verməlidir.*

*Məktəb uşağın və onun təhlükəsizliyinin qayğısına qalmalıdır.*

**İntizam Komitəsinin qərarı ilə razılaşmasanız nə edə bilərsiniz?**

İntizam Komitəsinin qərarı ilə razı deyilsinizsə Qəyyumlar Şurasına müraciət edə bilərsiniz. Qəyyumlar Şurası məktəbdə daha çox insanın birləşdiyi bir komandadır. Qəyyumlar Şurası İntizam Komitəsinin düzgün qərar verib-verməməsinə baxacaq. Qəyyumlar Şurası İntizam Komitəsinin səhv qərar qəbul etdiyinə inanarsa, bu qərarı ləğv edəcək. Əgər İntizam Komitəsinin düzgün qərar verdiyini düşünərsə, onu dəyişməyəcək.

**Bunları da bilsəniz yaxşı olar:**

- Qəyyumlar Şurası məktəb qaydalarını və qanunlarını pozduğuna görə direktoru işdən çıxara bilər;
- Qəyyumlar Şurası məktəb direktorunun qərarları ilə bağlı şikayətləri də müzakirə edəcək;
- Direktorun müraciəti əsasında Qəyyumlar Şurası da müəllimi işdən azad edə bilər.

*Məktəblə bağlı problemləri həll etmək üçün birbaşa Təhsil, Elm və Gənclər Nazirliyi ilə də əlaqə saxlaya bilərsiniz. Bunun üçün məsələnin əvvəlcə İntizam Komitəsində müzakirəyə çıxarılması vacib deyil.*

Nazirlikdə Daxili Audit Şöbəsi fəaliyyət göstərir. Burada işləyənlər məktəbə baxış keçirir, hətta ora gedib məktəbdə uşaq hüquqlarının qorunub-qorunmadığını qiymətləndirirlər. Əgər həmin şəxslər məktəbdə uşaq hüquqlarının qorunmadığını düşünərlərsə, uşaq hüquqlarının müdafiəsi üçün necə davranmalı olduqlarını yazılı şəkildə bildirəcəklər.

**Təhsil, Elm və Gənclər Nazirliyi ilə necə əlaqə saxlamaq olar?**

- Ünvan: Tbilisi şəhəri, Dimitri Uznadze küçəsi, №52;
- Nazirliyin qaynar xətti: 032 2 20 02 20;
- Suallarınızı Facebook.com/mesGeorgia və ya pr@mes.gov.ge ünvanına yazıb göndərə bilərsiniz;
- Nazirliyin Daxili Audit Xidmətinin qaynar xətti: 032 2 20 02 20 və daxili nömrəsi: 1150.

Məktəbdə baş vermiş insidentlə bağlı siz Gürcüstanın Xalq Müdafiəçisi ilə də əlaqə saxlaya bilərsiniz. Ombudsman sizin hekayənizi öyrənəcək və hüquqlarınızı qorumağa kömək edəcək.

**Gürcüstanın Xalq Müdafiəçisinə necə müraciət etmək olar?**

- Ünvan: Tbilisi şəhəri, D.Ağmaşenebeli küçəsi, №80;
- Qaynar xətt: 1481;
- E-poçt: info@pdo.ge və ya feysbuk: https://www.fb.com/OmbudsmanofGeorgia/

Mandaturlar da məktəbdə uşaqlar üçün təhlükəsiz şəraitin yaradılmasına çalışırlar. Siz Mandatur Xidmətinə, həmçinin onlayn və ya ofisə müraciət edərək psixoloqun xidmətlərindən yararlana bilərsiniz.

- http://mandaturi.gov.ge/contact;
- Ünvan: Tbilisi şəhəri, M.Aleksidze küçəsi, II döngə, №2;
- Telefon: 032 2 20 02 20 (daxili nömrə 3335);
- Mandaturun psixososial xidmətləri: 08 00 00 00 88.

Fikrinizcə Məktəb Komitəsi və ya Qəyyumlar Şurası tərəfindən qəbul edilmiş qərar ədalətsiz və əsassızdırsa, məhkəməyə müraciət edə bilərsiniz.

*Mənbə: "edu.aris.ge".*

*Gürcü dilindən tərcümə etdi:* **Aynurə ƏLİYEVA**

# AZDIRILMIŞ İTİMİZİN DÖNÜŞÜ



Bir axşam dükanı bağlamaq üçün yır-yığış etdiyim vaxt qapının ağzında bir itin şöngüyüb oturduğunu, mənə doğma olduğunu, yad olmadığını isbatlayırmış kimi quyruq buladığını, təpinəndə şırvandığını fərq etdim. Artıq qaranlıq düşdüyündən, dükanın solğun işığının zəifliyindən itin nə ənli-cinli olduğunu anşırmaq da mümkün deyildi.

Səsimi qaldırıb iti qovmağıma baxmayaraq, onun ayaqlarını sürüməsindən, könülsüz-könülsüz aralanmasından heç almadım. Onun bu gedişində bir müəmma, bir qəribəlik olduğunu ağlımdan keçirsəm də, bu ağlımdan keçənlərə bir elə də bənd olmadım. O üzdən ki, bizim birja dediyimiz ortalıq yolunda gecə-gündüz sahibsiz küçə itləri qarışqa kimi qaynaşırdı. Dəli sözü, daş atanda itə dəyirdi. Mənim qaranlıqda şöngüyüb baxan iti belə sümsük itlərdən biri hesab etməm də təbii qarşılanmalıdır.

Birjada istənilən cins köpəyə rast gəlmək olardı. Dükanların, yeməkxanaların dörd tərəfində sülənən bu it sürüləri hər mənada təhlükə mənbəyi idi. Az qala bu dörd yolayrıcına insanlarla bərabər yiyələnmişdilər. Onlar da insanlar kimi ərazini nüfuz dairəsinə bölmüş, kənardan gələn və ya zorla gətirilən hər hansı bir itin burada yerləşməsi, özünə bu köpəklər arasında yer eləməsi zülüm idi. Belə bir statusa yiyələnmək üçün yeni sakin gərək bir neçə dəfə boğulmağı, həmcinslərinin dişlərinin bədənində açdığı yaraların acısına dözməyi öyrənəydi. Eyni məkanı paylaşdığı insanların vurduğu zərbələrə, atdığı daşlara, dedikləri nifrin dolu sözlərə sinə gərməliydi.

Bəs nə bilmişdin?! Nə bura Avropadır, nə də bu itlər evləri bəzəyən, sahiblərini əyləndirən süs itləri. Küçənin öz qanunları, öz qəddarlıqları var. Bir loxma yemək üçün gərək həmcinslərinlə boğuşmağa, didişməyə alışasan, insanların vurduğu təpiyin, atdığı yalamanın ağrısına dözəsən. Yoxsa küçədə yaşayamı bilərsən?!

Ayağının biri havada çoynaya-çoynaya gəzən, orası-burası yara-xora olan, bütün bədənini qoturluq basan itlər hər addımbaşı qarşına çıxa bilər. Küçə itlərinin bircə dənəsi də sağlam deyil. Onların hər biri bu və ya digər dərəcədə yaralı, xəstədir. Hələ böyük "qanacaq" yiyəsi sürücülərin vurub şikəst etdikləri, o dünyaya göndərdikləri itləri bu siyahıya salmıram. Bu baş verənləri təsadüfi və ya bədbəxt hadisə kimi dəyərləndirirəm.

Camaat tez-tez "ay bu itlər adama qəfil yönəlir", "ay arvad-uşağı qapır", "ay hində toyuq-cücə qalmadı", "ay it uşağın bağrını yarıb ağürəkləmə elədi", "ay filankəsə neçə diş batırıb", "ay nə bilim nə oldu" kimi deyingənliklər edirdi, bu da gedib hökumətin qulağına çatırdı. Bir ara camaatın şikayəti, narazılığı yiyəsiz itlərə qarşı hökumət tərəfindən tədbir görülməsinə gətirib çıxardı. Tədbir deyəndə də, bu, sahə müvəkkillərinin əllərinə TOZ 8 tüfəngi götürüb, bu itlərin beş-onunun leşini ora-bura sərməsindən ibarət oldu. İtləri müəyyən müddət pələsəng elədilər. Ara sakitləşəndən sonra qaçıb dağılan itlər geri qayıtdılar və ya odun satmağa gələn gürcülərin gətirib kəndə buraxdıqları səmə itlərin hesabına daha da artdılar. Elə bizimkilər də sümsük itləri başqa yerlərə aparıb azdırırdılar.

Bir ara da kimlərsə sahibsiz itləri tutub harasa aparırdılar. Bu adamların nə məzhəbə qulluq etdiyini kimsə bilmirdi. Söz-söhbət gəzirdi ki, onlar yığdıqları bu irili-xırdalı itləri hardasa çalışıb, işləyən çinlilərə satırlar. Bu xəbərin doğruluğunu da heç kim təsdiqləyə bilmirdi. Düzü, həmin vaxtlarda çinlilər Tiflis ətrafında yol çəkirdilər. Amma onların bizim kəndin sümsük itlərinə müştəri çıxacaqları, bir dəri, bir sümük bu itlərdən mətbəxlərində hansısa delikates hazırlayacaqları adamın qafasına batmırdı.



İndi sahibsiz küçə itlərinə münasibət dəyişib. Onlara əziyyət vermək, öldürmək yasaqlanıb. Bunu edənlərin məsuliyyətə cəlb olunması sıradan bir haldır. Hökumətin hansısa bir idarəsi bu sahibsiz itləri tutub harasa aparır, iynəsini-dərmanını vurur, peyvənd edir, qulağını sırğalayır və gətirib yenə həmin məkana buraxır. Məsələn, məktəblərin həyət-bacasına. İtlər də şagirdlərlə eyni məkanı paylaşaraq, uşaqların əlindən düşən yemək artıqlarını göydə qapıb, şad-xürrəm yaşayır, öz it həyatlarının dadını çıxarıb, öz it dillərində yaradanlarına yəqin ki, şükür edirlər. Sağ olsun hökumətimizi, bir problemimizi də belə yoluna qoyub. Hökümətin bu problemi çözmə yöntəminə də bir ağızdan "molodes" deməyimiz pis olmaz.

Daha vətəndaşın it qapmasından əndişəsi də yox. Niyə də olsun axı, it qapsa da quduzluğa yoluxmayacaq. Yuxarıda ərz etdim ki, bu itlərin əksəri tibbi müayinədən keçib, diş batırsa da, iraq-iraq, qulaqlara qurğuşun, quduzluq qorxusu yoxdur.

Ay dad, mən dükanın qabağında gördüyüm və hirsimi başından aşağı tökdüyüm iti tamam yaddan çıxardım, axı. Elə mənim söhbətimin ən maraqlı personajı da həmin it olmalıydı. Qısa kəssəm, bizim bir sümsük, itlikdən çox ziyanvericiliklə məşğul olan itimiz var idi. Sümsüklüyü bir yana, həyətdə hər şeyə başını soxmağı, bir iz tapıb qonum-qonşunun əkinini tapdalamağı cəhənnəmə, arada gözdən yazınıb kiminsə toyuq-cücəsini dişinə çəkməyi də varıydı. Adam ağzını yorub ona it deməyə də utanırdı.

Xülasə, günlərin bir günü xalam oğlu itimizi maşına basıb işlədiyi idarəyə azıtmağa apardı ki, həm qonum-qonşunun yanında xəcalətli olmayaq, həm də bizim bu səmə köpəyimiz yeni yerində-yurdunda ac qalmasın, biz də vicdan əzabı çəkməyək. Sən saydığını say demirlərmi, itimiz bir neçə gündən sonra uzun yolu əlinə alıb özünü işlədiyim dükana yetirmişdi.

Onun evə qayıtmaq arzusu səhərisi gün gerçəkləşdi. Görünür dünən axşam mənim ona üz verməməyim xətrinə dəymişdi. Belə ki, səhər məni dükanın qapısında qarşılayan köpəyimiz bir az da oralarda sələndikdən sonra axşama özünü həyətimizə çatdırmış, yüz oyundan çıxaraq, gəlişini evdəkilərə bildirmiş, üzünü-başını həyətin daşına-kəsəyinə sürtüb bizim ev adamlarını da xeyli mütəəssir edərək, sümsük olsa da, itin necə vəfalı heyvan olduğunu əyani şəkildə sübut etmişdir.

**Afiq MUXTAROĞLU**

# İKİ GÜNDƏ ADAM KİMİ ADAM OLDUQ



Yəqin orta nəsil yaxşı xatırlayar. Gözəl uşaqlığımız vardı. Məhəllə uşaqları yığılar uşaq oyunları oynayardı. Evdə olanda maraqla televiziya proqramlarını izləyərdik. Ən əsası, ad günləri bir bəhanə idi, bütün qohumlar yığılardı. Bayramlarda isə hamı ya nənə-baba başına yığılar, ya da böyük əmi-dayı evinə yığılardı...

Uşaqlığımızdan danışacaq o qədər, bəlkə də bugübkü nəslə çatmayacaq, xoş xatirələr var ki. Artıq illərdir ki, bu xatirələr folklor tarixinə dönüb.

İnternet cəmiyyətimizə bir bıçaq kimi daxil olub. Əslində bıçaq cərrahda da ola bilər, qəssab da da. Təəssüf ki, az qala əksəriyyət cəllad kimi istifadə edir. Yəni internetlə dostlaşdıqca kimliyimizi unudur. Daha doğum günləri vatsap statuslarıyla təbrik edilir, şəkil paylaşıb ürək sözü yazmaqla bitir. Bəzən səmimi cümləyə belə vaxt ayırmırlar, ürək sözləri smayliklərlə kifayətlənir. Ailə də qonaq qəbul etmir. Kafedə, restoranda ya ailəsi, ya istədiyi bir neçə nəfərlə qeyd edir. Doğmalar yığıncağı olmur. Beləcə uşaqlar da bir-birini tanımır. Bu, bir uzaqlaşmadır.

Daha bayramlaşmalar mesajlarla göndərilir. Faciə odur ki, yazmağa da vaxt ayırmırlar, hazır mesjları və ya şəkilləri atırlar.

Daha darıxanda qonaq da getmirlər. Hamı bir-biri ilə virtual danışır. Əvvəllər görüntülü idi, indi yalnız zəngləḋir. Danışan isə böyüklərdir. Uşaqlar bir-birlərini görmədikləri üçün yadlaşırlar. Bayramlarda da hər kəs şəxsi kiçik əhatəsiylə yad mühitlərdə masa arxasında, doğma nənələrinin, bibilərinin, xalalarının əlinin duzu ilə yox, yad aşbazların yeməklərini yeyirlər. Bax, beləcə "sosiallaşırıq".

Hər kəs öz izlədiyi feysbuk, instaqram, tik-tok səhifələri ilə baş-başa qalır. Əmilər, dayılar, xalalar, doğmalar beləcə naməlum sosial dostlara çevrilir. Kimliyini, əməlini, vicdanını, ləyaqətini bilmədiyimiz sosial profillər doğmaları əvəz edir. Faciəmiz odur ki, bu şəbəkələrdən müsbət tərəfləri götürmək əvəzinə "dekan olmaq istəyən Balaəliləri" daha çox izləyirlər.

Oğlumun futbolda qolu sınmışdı. Kiçik bir əməliyyat oldu. Xəstəxanadan çıxdıqdan sonra bir ay dayanmadan hər gün yoluxmağa qohumlar, dostlar, qonşular gəldi. Oğlum təəccüblə soruşdu: "Ana bu qədər qohum-əqrəba gözləməli idi ki, mənim qolum sınsın? Niyə başqa vaxt gəlmirdilər?" Düzü, sualdan həm xəcalət çəkdim, həm kövrəldim, həm də cəmiyyətimiz adına utandım. Sonra yaşadığımız uşaqlığı uşaqlarıma danışdım. Danışarkən təəssüflə kövrəldim. Çox təəssüf ki, bu gün bu faciələr cəmiyyətimiz kimi mənim də ailəmə sirayət edir. Uşaqlarımın intelektual səviyyəsinə milli və mənəvi təfəkkürümlə nə qədər müdaxilə etsəm də sosial cəmiyyət öz sözünü deyir. Etməlidir də, bu, həyat gerçəkliyidir. Boşa deməyiblər ki, hər kəs mühitin övladıdır. Mühit ilə ayaqlaşmasan cəmiyyətin özü səni "udalit" edir.

Bu il yerini dəyişən fəsil bizimlə cidi zarafat eləməyə başladı: yaz fəsli gah qışın, gah yayın, gah payızın libasını geyindi. Nəhayət, may ayının son günləri özünü martın əvvəli kimi göstərərək çaylarımız daşdı, buludlarımız hönkürdü. Təbii fəlakət yüksək gərginlikli kiçik stansiyaları sıradan çıxartdı və iki gün işıqsız qaldıq. Buna sosial dillə "yeniliyin iflic olunması" deyə bilərik. Elektriklə işləyən bütün cihazlar dayandı. İnternet şəbəkələri, telefonlar işləmədi, elektrik olmadığına görə ötürücülərimiz zəiflədi. Beləliklə bir az özümüzü düşünməyə vaxtımız çatdı. Əksər adamların telefonlarında enerji olmadığından sanki insanlar başını qaldırıb ətrafa baxdı. Heç kəs şəbəkələri izləmədi, statuslara baxmadı. Hamının yadına doğmaları düşdü. Darıxdıqlarından bir-birini axtardılar. Qonşuluqda yaşayan virtual danışan qohumlar bir-birini çəpərdən səslədilər. Yox, yox! Əhvalını soruşmurdu, işığı soruşurdu. Ən azından danışırdı. Axşamlar şam işığının başına yığıldılar. Hər gün yığışdığımız şam süfrəsində hər kəs yeməyini yeyib öz guşəsinə çəkildiyi halda, indi bir-biri ilə söhbət etməyə başladı. Söhbətin sonunda xatirəyə dönmüş ailəcə oynanılan dominolar, damalar gündəmə gəldi. Beləcə doğmalıq bərpa olundu. İki gündə "səssizlikdən", qaranlıqdan darıxan qohumlar axşamı qonaq getdilər. Təəssüf ki, bu iflic dediyimiz xoşbəxtlik iki gün çəkdi, çox tez qayıtdıq əvvəlki həyatımıza...

Mən yalnız hamını birlikdə şam süfrəsində yığırdım. Məcbur edirdim ki, hamımız birlikdə yemək yediyimiz zamanda bir retro filmi izləyək. Bir saatlıq sakit, hərdən müzakirəli izləmədən sonra hər kəs öz guşəsinə çəkilər, kimi yazar, kimi şəkil çəkər, kimi telefona baxar və sair işlərlə məşğul olardıq...

Artıq gecədən işıq yanmışdı. İşə, dərsə gedən bizlər yenə axşama şam süfrəsinə yığıldıq. İki günlük xoşbəxt həyatımızı yaddaşa salmaq istədim. Yeməyimizi yeyib domino oynayaq dedim. Oğlum dedi mən futbola baxacam, qaçırdığım oyunlar var. Qızım dedi animasiya filmi hazırlayıram, şəkilləri çəkəcəm. Yoldaşım dedi yorulmuşam, bir az xəbərləri-zadı izləyək, görək iki gündə dünyada nə baş verib. Meydanda tək qalan mən keçdim kompüter arxasına...

Bax beləcə yenidən döndük palaza bürünüb sürünməyə. Yəqin məktəb dərsliyindən "Manqurt" hekayəsi yadınızdadır (Ç.Aytmatov – "Əsrə bərabər gün" romanı). İstəyəndə insanın keçmiş yaddaşını pozaraq bu günü yükləməklə öz adamın edə bilərsən. Bu qədimdə çox ağrılı yol idi. Bu gün manqurtlaşmağın ağrısız, sevdirə-sevdirə asan yolu hörümçək toru kimi bizi ağuşuna alan virtual mühitdir – internetdir.

Bəlkə də təbiət bizə ibrət dərsi vermək üçün insan tələfatı vermədən bu təbii fəlakəti yaratdı. Biz iki gün insanlıq yaşadıq, doğmalaşdıq, dünənə döndük. Ən əsası, iki gün adam kimi adam olduq...

Belə günlər üçün fəlakətlər gözləməyək, ictimai nəbzi izləyək, amma özümüzdən ayrılmayaq. Virtual həyatdan gerçəkliyə dönək, doğmaları bağrımıza basaq. Vallah, insanlığın ətri virtual hiss olunmur!

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# ŞƏRƏFLİ PEŞƏNİN FİDANI






Mənim üçün müəllim haqqında yazmaq çox məsuliyyətli və qürurverici bir haldır. Bəlkə ona görə ki, ziyalı ailəsində doğulmuşam və bu müqəddəs peşənin nə qədər çətin, məsuliyyətli və şərəfli olduğunu daha yaxından görmüşəm, duymuşam.

Müəllim gələcəyi quran varlıqdır, xalqın mənəvi, intellektual, mədəni dəyərlərinin qoruyucusu və daşıyıcısıdır. Müəllimlik peşəsi cəmiyyətin təməlində durandır. Keçmişdən gələn bilikləri gənc nəslə ötürən, onu şəxsiyyət kimi formalaşdıran, onun bilik və bacarıqlarını üzə çıxaran və düzgün istiqamətə yönəldəndir müəllim. Cəmiyyət ağacının kökündə duran təhsildirsə, onun aparıcı qüvvəsi müəllimdir. Müəllim tədris etdiyi fənni mükəmməl bilməli, şagirdin bilik və bacarıqlarını üzərə çıxarmalı və düzgün istiqamətə yönləndirməlidir. Ən başlıca meyar isə müəllimin dərs dediyi şagirdlərini sevməsidir. Məncə, bu əsas təməl müəllimlə şagird arasında körpüdür. Müəllim qurucudur, yaradıcıdır və cəmiyyətin düzgün formalaşmasının memarıdır. Əsrlərdən bəri ən hörmətli peşə müəllimlik peşəsi olub və olmaqdadır. Dəyişən isə zamanın tələbləridir.

Mənim yaşadığım bölgədə çox sayda ailələr var ki, müəllimlik peşəsi nəsildən-nəslə ötürülüb. Mənim qəhrəmanım da belə ailədə göz açıb və babasının yolunu davam etdirmək kimi şərəfli yolu seçib.

Fidan Rəhimovanın babası Kərim Rəhimov Bolnisi rayonunun ən dəyərli, savadlı riyaziyyat müəllimi olub. Uzun illər riyaziyyat fənnini yüksək səviyyədə tədris edən Kərim müəllim eyni zamanda şagirdlərini ali təhsil müəssisələrinə qəbula hazırlayıb, onların tələbə adını qazanmaqlarında mənəvi dəstək olub. Dövrünün ən dəyərli ziyalılarından olan Kərim Rəhimov ömrünü gənc nəslin təhsil və inkişafına sərf edib.

Fidan Rəhimova babasının yolunu şərəflə və layiqincə davam etdirir. O, Muxrana və Naxiduri ümumtəhsil məktəblərində pedaqoq kimi çalışır, ingilis dili fənnini uğurla tədris edir. Gənc müəllimimiz Fidan Rəhimova 2015-ci ildə 603 balla Azərbaycan Dillər Universitetinin filologiya və jurnalistika fakültəsinə daxil olmuşdur. Qeyd etmək istəyirəm ki, 603 bal Bakıda yüksək bal hesab olunur, həmin ilin statistikasına əsasən, respublika üzrə imtahan verən 45000 nəfərdən yalnız 1000 nəfəri belə yüksək bal toplaya bilmişdir. Fidan Rəhimova 2019 -cu ildə təhsilini başa vurduqdan sonra Gürcüstana qayıtmış və müəllim kimi çalışmağa başlamışdır. Daha sonra ingilis dili, eyni zamanda Azərbaycan dili və ədəbiyyatı fənlərindən 10 kredit toplayaraq baş müəllim statusu almışdır. Fidan Rəhimova hal-hazırda Azərbaycan Diplomatik Akademiyasında (ADA) təlim və tədrisin metodikası üzrə magistr təhsili almaqdadır. İngilis dilini mükəmməl səviyyədə tədris edən Fidan müəllim şagirdlərin və valideynlərin sevgi və hörmətini qazanmışdır. O, nəinki gözəl müəllim, eyni zamanda şagirdlərinin dostu və etibar etdiyi insandır. İngilis dilini, eyni zamanda ana dilimizi böyük sevgi və yüksək peşəkarlıqla tədris edən gənc müəllimimiz mütəmadi olaraq mükafatlara və diplomlara layiq görülür. Tədris etdiyi fənni zamanın tələblərinə uyğun qurmaqla yanaşı, işinə yaradıcı yanaşma Fidan müəllimin əsas prioritetlərindən biridir. Fidan müəllim çoxsaylı şagirdlərinin sevimli müəllimidir və şübhəsiz ki, belə də davam edəcəkdir. Fidan Rəhimovaya uğurlar arzulayıram və onunla qürur duyuram!

**Leyla YUSİFOVA**

*Vətəndaş təhsili fənni üzrə müəllim*

# GÜLÜŞÜN ESTETİKASI

**Elizbar CAVELİDZE**



***

Gülüşün estetikasından danışarkən yumoru, daha doğrusu, sarkazmın ağuşunda yaranan satiranı da unutmaq olmaz. Odur ki, türk folklorunda çox rast gəlinən, daşqalaq mənasını verən şeirin nümunələri "taşlamalar"a bir neçə sözlə toxunmalıyıq. "Daşqalaq" adı artıq özözlüyündə bu şeirlərin müəllifinin niyyətindən xəbər verir. Bu, artıq xoş əhval-ruhiyəli, əfvedici yumor deyil, məqsəd dinləyicini və ya oxucunu güldürmək olmayanda, artıq amansız sarkazmdır, amma artıq daşdan tikilmiş sarkofaqdır ki (Qədim xalqlarda daş tabut – Tətcüməçi), orada da basdırılmış yaramazlıqları ələ salırlar. Bu, gülüşün lənətə çevrildiyi, pərişan və işgəncəyə məruz qalmış xalqın öz zalımlarına və onun təxəyyülündə pisliyə bərabər tutulan neqativ hadisələri tozlandırdığı reallıqdır. Bir sözlə, bu janrda təsvir olunan reallıq lupa vasitəsilə görünür və heç də nadir hallarda deyil, şişirdilir və təhrif edilir.

İlk növbədə türk xalqı "Kimin igid və qəhrəman olmasının bəlli olmadığı keşməkeşli dövrlərdən danışır. Hər kəs öz dərdinə çarə axtarır, lakin nə dərd, nə onun dərmanı məlumdur" *(Yücebaşı H., Hiciv Edebiyatı Antölöjisi, İst., 1955, s. 122)*. Dünyanın sonu gəldi, nəcabətlilik göyə çəkildi, itdi. "Gücü olan əzabkeşi talan edir" *(Elə orada, səh. 122)*. Bütün ölkəni zorakılıq və zülm bürüdü, ədalətin qızıl güllərini solduran despotizm hökm sürdü:

**"Adalet kalmadı hep zulum doldu,**
**Getdi bu baharın gülləri soldu.**
**Dünyanın gedişi acaib oldu.**
**Koyun belli degil, kurt belli degil"** *(Elə orada, səh. 122)*.

Bu ağır, dözülməz durum insanın başını qarışdırır, ağrıdan yanır, çünki onun artıq nə yaylağı var, nə də yurdu!

**"Başım ayık degil kederden, yastan,**
**Ah ettikce duman çıkıyor baştan,**
**Haraba yüz tuttu bizim Gülüstan,**
**Yayla belli degil, yurt belli degil"** *(Elə orada, səh. 123)*.

Dünyada hökm sürən haqsızlıq hamını, xüsusən də savadlı insanları sıxışdırıb: "Zülmə düçar olmayan bircə savadlını da görə bilməzsiniz. Ədalət bəkməzinin kuzəsi haqsızlıq sirkəsi ilə kip bağlayıb" *(Elə orada, səh. 129)*.

Amma haqsızlıqdan dərd-qəmə düçar olmuş insanlar, mövcud bədbəxtliyin irin qarışıq pəstən gülərək ifşa olunmasına məgər inanırlar. O, bu zülmətdən, haqsızlığın qiyam və dumanından xilas olmaq üçün mübarizə aparır, bədbəxtliyinin səbəbkarı hesab etdiyi obyektlərə amansız kinayə ilə hücum edir. Hətta son dərəcə nəcib, çox səbirli və itaətkar bir insana da (A.Stenin) səbir kasası daşmış, artıq istehza konkret bir şəxsə ünvanlanmış və təbii ki, onun kinayəsi daha konkret xarakter almışdır.

**"Sana bir destan söyliyem,**
**Şaşarsın Seyyit efendi.**
**İntizar bilmem ki, diyem,**
**Şişersin Seyyit efendi"** *(Elə orada, səh. 116)*.

Satirik şeirin bu bəndi ilə sanki öz hücum obyektini dinləməyə hazırlayır, sonra isə aşkarlamağa başlayır: Biz sənin atanı heç nə hesab edirdik, ancaq öz qazdığın çuxura düşsən, ayısan, deyir. Sonra tədricən onun şəxsiyyətini həkk edir: Sən ağa yanında qul idin, əlinə bir qaz keçirdin, rahatlıqla onu çirkləndirdin, beləcə şeytana çevrildin və beləcə qaldın. Allah köməyin olsun, yaşa, – deyərək öz lənətlənmiş obyektinə – Seyid bəyə ümid verir *(Elə orada, səh. 116)*.

Düşündürücü haldır ki, bu satirik şeir konkret bir şəxs barədə – Seyid Əfəndi barədə el şairi yaradıb. Amma xalqın şüurunda o, kəndlinin rəğbətinə layiq olmayan zalım və ədalətsiz, dələduzluq yolu ilə hökmran olan zənginin ümumiləşdirilmiş simasıdır. Üstəlik, kasıbın varlıya, başqa cür desək, kəndlinin ağasına olan nifrəti burada açıq-aydın görünür ki, bu da şəffaf, amansız kinayə ilə tökülür, ən əsası isə səmimiyyətdən doğan bu şəffaflıq və sadəlikdir, ona estetik cazibə və emosional təsir bəxş edir ki, bu da xalq poeziyasının ümumi xüsusiyyətidir.

Ümumiyyətlə, insanlar dünyada hökm sürən haqsızlığı, nizamsızlığı ən çox həssaslıqla dərk edir. Və bu iyrəncliyi silah gücü ilə aradan qaldıra bilmədiyi təqdirdə, bir qayda olaraq, gülüş və istehzaya müraciət edir, onun vasitəsilə də mənəvi qələbə qazanır, onu məğlub edir. Mənfur obyekt üzərində belə bir mənəvi qələbə, müəyyən bir vəziyyətdə, güc tədbiq etməyə nisbətən daha güclü və nəticəlidir!

Belə ki, xalqın həssas və iti gözü mürəkkəb həyatın adi gözlə görünməyən ən dərin qatlarına çatır, mövcud pisliyə nəzər yetirir və "qədlənməmiş" gülüşlə daşqalaq etməyə cəhd göstərir.

Hər şeydən öncə, özünü olmayan kimi göstərən yalançı və riyakar insanın şəxsiyyəti qınanır:

**"Ben senin aslından aldım haberi,**
**Aşiqlik bilmezsin, denirlenirsin,**
**Nafile söyleyib usta eşari,**
**Gedib de üst yana şahbarlanırsın"** *(Elə orada, səh. 116)*.

Bu tip insanlar məktəbdə ancaq onu öyrəniblər ki, "Zərif toxunmuşu qalın toxusunlar və qəhvəxanada dələduzluq etsinlər" *(Elə orada, səh. 117)*. Bir sözlə, əlləri müqəddəs su çilənərək təmiz olmayan palçıqda əlləşirlər. Ona görə də Aşıq (Dərdli) insanları Allahın gic bəndələrinə qulaq asmamağa çağırır, çünki onlar o qədər dələduz və lovğadırlar, din sahəsində elə mənfəət güdürlər ki, insanlar Qurani-Kərimə inamını itirib, onun verdiyi ayinlərdən əl götürüblər. Zira, Allahın bəndələri özləri bu ayinlərin yerinə yetirilməsinə hörmət etmirlər: "Dəstəmaz alsan, sənə yerinə yetir deməz, namaz qılsan, sənə namaz qıl deməz, qazi kimi haram şey yemə, onlar arasında şeytan hansıdır?" *(Elə orada, səh. 117)*. Buna nə səbəb oldu və şeytan harada yuva qurdu? Ürəyi parçalanmış Aşiq oxuyur. Görünüşünə görə digərlərindən fərqlənmədiyi üçün onu tapmaq çətindir.

**"Derdli kimi sarıksızdır,**
**Ayağı da çarıksızdır.**
**Buynuzu yok, kuyruksuzdur**
**Şeytan bunun neresinde?"**
*(Elə orada, səh. 117)*.

Oxucu və ya dinləyici bu sualı təkrarlamaqla yaramaz şeytanın harada gizləndiyini asanlıqla başa düşə bilər, çünki bu, özünü Allahın xidmətçisi kimi göstərən cəmiyyətdir!

*(davamı növbəti sayda)*

Müəllif: **Elizbar CAVELİDZE**
Gürcü dilindən tərcümə etdi:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MAY 2024-CÜ İL № 10 (205)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# NAZİR ÖVLADLARININ TƏHSİL HAQQI NƏ QƏDƏRDİR?



Gürcüstan hökumətinin birinci şəxslərinin övladları harada təhsil alırlar və onların təhsili neçəyə başa gəlir? – Bu məsələ dəfələrlə ictimaiyyətin maraq və müzakirəsinə səbəbi olub. Məhz bu marağı nəzərə alaraq qərar verdik ki, nazirlərin bəyannamədə qeyd etdiyi məlumatı ictimaiyyətə çatdıraq. Ancaq nazirlərin bir qisminin məktəb yaşlı övladı olmadığına, yaxud bəyannamədə qeyd etmədiklərinə görə, məlumatlar natamamdır.

**Gürcüstanın Baş naziri İrakli Kobaxidze** – 2024-cü ilin əvvəlində doldurulmuş bəyannaməyə görə, Qiorqi və Niko Kobaxidzelərin təhsil haqqı ildə 17674,88 lari təşkil edir. Həmçinin bəyannamədə qeyd olunub ki, uşaqların dil kursuna 2860 funt ödənir, həmin məbləği lariyə çevirəndə Baş nazir uşaqlarının dil kursuna ildə 9940 laridən artıq pul ödəyir.

**Təhsil, Elm və Gənclər naziri Giorgi Amilaxvari** – 2024-cü ilin əvvəlində doldurulmuş bəyannaməyə əsasən, G.Amilaxvarinin övladlarının təhsilinə 2023-cü il ərzində onun həyat yoldaşı Nino Tsereteli pul ödəyib. Nitsa Amilaxvarinin təhsilinə ümumilikdə 25000 lari, Ana Mia Amilaxvarinin təhsilinə isə 5900 avro ödənib. Bəyannamədə nazir övladlarının harada təhsil aldığı qeyd olunmayıb. Ancaq Amilaxvari ictimai şəkildə bildirib ki, onlar özəl təhsil müəssisəsində oxuyurlar.

**İqtisadiyyat və Davamlı İnkişaf naziri Levan Davitaşvili** – Bəyannaməyə görə, Davitaşvilinin uşaqlarının təhsil haqqını həyat yoldaşı Tea Parkosadze ödəyir. Tea Parkosadze Ana və Luka Davitaşvililərin təhsilinə 2023-cü ildə ümumilikdə 22470,76 lari ödəyib. Sənəddə bu məbləğin bir və ya iki uşağın təhsil haqqı olduğu yazılmayıb.

**Mədəniyyət və İdman naziri, Baş nazirin müavini Tea Tsulukiani** – Övladı Meri Kakulianın təhsil haqqını özü ödəyir. O, 2023-cü ildə təhsilə 14635 lari ödəyib.

**Gürcüstanın Xarixi İşlər naziri İlia Darçiaşvili** – 4 övladı var, onlardan 2-si bağçaya gedir. Bəyannamədə yazılanlara görə, övladlarının təhsil haqqını həyat yoldaşı Nino Vaşakidze ödəyir.

2023-cü il ərzində təhsilə ödənmiş məbləğ belədir:

Sopo Darçiaşvilinin təhsil haqqı – 13158,9 lari;

Aleksandre Darçiaşvilinin təhsil haqqı – 11328,9 lari;

Daniel Darçiaşvilinin bağça haqqı – 3947,65 lari;

Giorgi Darçiaşvilinin bağça haqqı – 3947,65 lari.

**Gürcüstanın Maliyyə naziri Laşa Xutsişvili** – Övladlarının təhsil haqqını özü ödəyir. 2023-cü il ərzində o, hər iki övladının – Demetre və Damiane Xutsişvililərin təhsil haqqına ümumilikdə 13171 lari ödəyib.

Bəyannamədə təhsil haqqının kimin üçün nəzərdə tutulduğu konkret qeyd olunmayıb. Lakin yazılıb ki, maliyyə naziri təhsil haqqına 6178 və 6993 lari ödəyib.

**Ekologiya və Kənd təsərrüfatı naziri Otar Şamuqiya** – Bəyannamədə qeyd olunub ki, Otar Samuqiyanın 3 uşağı var: Luka, Qabriel və Andria. Təhsil haqqını isə onun həyat yoldaşı Mariam Samxaradze ödəyir. Andria Şamuqiyanın təhsil haqqı 2023-cü ildə 5096 lari təşkil edib.

**İşğal edilmiş ərazilərdən qaçqın, əmək, sağlamlıq və sosial müdafiə naziri Mixeil Sarcveladze** – Rəsmi sənədə görə, övladı Mariam Sacveladzenin təhsil haqqına nazir 5862,5 lari ödəyib.

*Mənbə: etaloni.ge*

## TÜRKİYƏ GÜRCÜSTANIN ƏSAS TİCARƏT TƏRƏFDAŞI OLUB




Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, cari ilin birinci rübündə Gürcüstan Azərbaycandan 208,8 milyon dollar dəyərində mal və məhsul idxal edib ki, bu da illik ifadədə 14,5 faiz azdır. Gürcüstanın Azərbaycana ixracı isə ötən illə müqayisədə 26,7 faiz azalaraq 191,94 milyon dollar təşkil edib.

Məlumatda bildirilir ki, Azərbaycan bu göstərici ilə Gürcüstanın 5-ci əsas ticarət tərəfdaşı olub.

Bu il Gürcüstanın Azərbaycanla ticarət dövriyyəsinin həcmi 400,8 milyon dollar təşkil edib ki, bu da illik ifadədə 105,3 milyon dollar və ya 20,8 faiz azdır.

Hesabat dövründə Türkiyə Gürcüstanın əsas ticarət tərəfdaşı olub – 964,06 milyon dollar.

İlk beşlikdə Rusiya (836,8 milyon dollar), Çin (497,54 milyon dollar) və ABŞ (479,7 milyon dollar) qərarlaşıb.

## ÖTƏN İL ƏHALİNİN GƏLİRLƏRİ XƏRCLƏRİ ÜSTƏLƏYİB

Gürcüstanda 2023-cü ildə əhalinin gəlirləri xərcləri üstələyib. Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb.

Məlumata görə, bir ailənin orta aylıq gəliri 18,4 % artaraq 1722 lari (633 dollar), xərcləri isə 16,7 % artaraq 1649 lari (606 dollar) təşkil edib.

Bir nəfərin orta aylıq gəliri 20,5 % artaraq 521 lari (190 dollar), xərcləri isə 18,7 % artaraq 499 lari (183 dollar) təşkil edib.

## GÜRCÜSTAN ÇİN İSTEHSALI OLAN AVTOMOBİLLƏR ÜÇÜN BAZAR AÇMAĞI PLANLAŞDIRIR



Gürcüstan Çin istehsalı olan avtomobillər üçün bazar açmağı planlaşdırır. Bu barədə Çinin Gürcüstandakı səfiri Çjou Jian bildirib.

Onun sözlərinə görə, bir çox Çin şirkətləri Gürcüstana sərmayə qoymaqda maraqlıdırlar: “Bu bazar Kutaisidə yerləşə bilər, amma bu il açılmalıdır”.

Səfir Gürcüstana investisiya qoymağın təhlükəsiz və sərfəli olduğunu bildirib: “Çin şirkətlərinin çoxlu investisiya layihələri var və Gürcüstana investisiya qoymaq təhlükəsiz və sərfəlidir”.

## RUSİYA GÜRCÜSTANA MAYE QAZIN ƏSAS İXRACATÇISI OLARAQ QALIR

Rusiya Gürcüstana maye qazın əsas ixracatçısı olaraq qalır. Bu, Rusiyanın Neft Məhsulları İdxalçıları İttifaqının məlumatında qeyd olunub.

Məlumata görə, aprel ayında Gürcüstana 11,01 min ton maye qaz idxal edilib ki, bunun da 99,6 %-i Rusiyanın payına düşür.

Ümumilikdə Rusiyadan 10,97 min ton LNG idxal edilib.

Qeyd edək ki, Gürcüstan 14,9 min ton neft bitumu idxal edib ki, bunun da 10,2 min tonu İraqdandır. Bitum Rusiya, Türkmənistan, Türkiyə və Azərbaycandan da gətirilir.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.